Azərbaycan Respublikası
İqtisadi İslahatların Təhlili və
Kommunikasiya Mərkəzi



# İXRAC İCMALI

Mart 2025

www.ereforms.gov.az
info@ereforms.gov.az

## TƏSADÜFİ DEYİL Kİ, AVROPA KOMİSSİYASI AZƏRBAYCANI ETİBARLI TƏRƏFDAŞ VƏ PAN-AVROPA ENERJİ TƏCHİZATÇISI KİMİ TANIYIR.

Təsadüfi deyil ki, Avropa Komissiyası Azərbaycanı etibarlı tərəfdaş və Pan-Avropa enerji təchizatçısı kimi tanıyır. Bir sözlə, bu gün Azərbaycandan nəql olunan neft və qaz bir çox ölkələrin enerji təhlükəsizliyində və əslində, onun möhkəmləndirilməsində həqiqətən böyük dəyişiklik yaradır. Buna yaşıl enerji mənbələrimizi, o cümlədən Azərbaycandan Avropaya gedən, qismən Qara dənizin dibi ilə çəkilən yeni enerji kabelini əlavə etsək, bu, məsuliyyətimizin digər təzahürü və bir çox ölkələrlə sıx tərəfdaşlıq münasibətlərimizin nümayişidir. Təkcə enerji sərvətlərinin olması kifayət deyil. Siz gərək qonşularınızla, onların qonşuları ilə yaxşı münasibətdə olasınız ki, enerji, təhlükəsizlik və bağlantı layihələrini icra edə biləsiniz.



**Azərbaycan Respublikasının Prezidenti cənab İLHAM ƏLİYEVİN 13 mart 2025-cü il tarixində "Dünya düzəninin yenidən düşünülməsi: Çağırışların fürsətə çevrilməsi" mövzusunda XII Qlobal Bakı Forumunun açılış mərasimində nitqindən**

# MÜNDƏRİCAT

Qeyri-neft sektoru üzrə ixraca dair məlumat — səh. 3

Qeyri-neft sektoru üzrə əsas ixracatçı subyektlərin reytinqi — səh. 15

Azərbaycan Respublikasının Kosmik Agentliyinə (Azərkosmos) aid xidmət ixracı haqqında məlumat — səh. 18

1

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ İXRACA DAİR MƏLUMAT



## 2025-ci ilin yanvar-fevral ayları ərzində qeyri-neft-qaz ixracı 153,9 milyon ABŞ dolları təşkil edib.

## Cari ilin yanvar-fevral ayları ərzində yeyinti məhsullarının ixracı 69,7 milyon ABŞ dolları olub.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi (İİTKM) "İxrac icmalı"nın mart sayını təqdim edib. İcmala əsasən, 2025-ci ilin yanvar-fevral aylarında Azərbaycanın qeyri-neft sektoru üzrə ixracı 2024-ci ilin müvafiq dövrü ilə müqayisədə **6,6%** artaraq **485 milyon** ABŞ dolları təşkil edib. Bu dövrdə yeyinti məhsullarının ixracı **12,3%** artaraq **153,9 milyon** ABŞ dollarına bərabər olub.

Cari ilin yanvar-fevral aylarında ixrac olunan qara metallar və ondan hazırlanan məmulatlar **66,9%**, şəkər və şəkərdən hazırlanan qənnadı məhsulları **47%**, alkoqollu və alkoqolsuz içkilər **10,2%**, kimya sənayesi məhsulları **30%**, çay **21,3%**, alüminium və ondan hazırlanan məmulatlar **2,8%** artıb.

2025-ci ilin yanvar-fevral aylarında aqrar məhsulların ixracı **9,5%** artaraq **119,7 milyon** ABŞ dolları, aqrar-sənaye məhsullarının ixracı **17,7%** artaraq **43 milyon** ABŞ dollarına bərabər olub. Bütövlükdə, aqrar və

aqrar-sənaye məhsullarının birgə ixracı **11,6%** artaraq **162,8 milyon** ABŞ dolları təşkil edib.

Qeyd olunan dövrdə ixrac edilmiş qeyri-neft sektoruna aid malların siyahısında qızıl (**40,2 milyon** ABŞ dolları) birinci olub. Bu siyahıda karbamid (**36 milyon** ABŞ dolları) ikinci, xurma (**30,5 milyon** ABŞ dolları) isə üçüncü yerdə qərarlaşıb.

2025-ci ilin fevral ayı ərzində ixrac edilmiş qeyri-neft sektoruna aid malların siyahısında qızıl (**19 milyon** ABŞ dolları) birinci olub. Bu siyahıda karbamid (**15 milyon** ABŞ dolları) ikinci, pambıq (**14,4 milyon** ABŞ dolları) isə üçüncü yerdə qərarlaşıb.

Cari ilin ilk iki ayında Rusiya Federasiyasına **150,8 milyon** ABŞ dolları, Türkiyəyə **82,8 milyon** ABŞ dolları, Gürcüstana **52,9 milyon** ABŞ dolları, İsveçrəyə **43,6 milyon** ABŞ dolları, Ukraynaya isə **41,2 milyon** ABŞ dolları dəyərində qeyri-neft sektoruna aid mal ixrac olunub.

2025-ci ilin fevral ayında Rusiya Federasiyasına **69,7 milyon** ABŞ dolları, Türkiyəyə **45,7 milyon** ABŞ dolları, Gürcüstana **26,5 milyon** ABŞ dolları, İsveçrəyə **21,4 milyon** ABŞ dolları, Ukraynaya isə **19,4 milyon** ABŞ dolları dəyərində qeyri-neft sektoruna aid mal ixrac edilib.



# 2025-Cİ İLİN YANVAR-FEVRAL AYLARI ƏRZİNDƏ QEYRİ-NEFT İXRACI
(2024-cü ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)

2025
İXRAC İCMALI
mart

2024 2025




Azərbaycan Respublikası İqtisadi İslahatların
Təhlili və Kommunikasiya Mərkəzi

# 2025-Cİ İLİN FEVRAL AYI ƏRZİNDƏ QEYRİ-NEFT İXRACI

(2024-cü ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)

2025
İXRAC İCMALI
mart

2024 | 2025

+2,7%

2024: 233 mln

2025: 239.2 mln



Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi

# 2025-Cİ İLİN FEVRAL AYI ƏRZİNDƏ QEYRİ-NEFT İXRACI

(2024-cü ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)

2025 İXRAC İCMALI mart



# 2025-Cİ İLİN YANVAR-FEVRAL AYLARI ƏRZİNDƏ AQRAR VƏ AQRAR-SƏNAYE MƏHSULLARININ İXRACI
(2024-cü ilin müvafiq dövrü ilə müqayisədə, faizlə)

2025
İXRAC İCMALI
mart




Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi

# 2025-Cİ İLİN YANVAR-FEVRAL AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ 5 ƏSAS İXRAC ÖLKƏSİ

## (2024-cü ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)





# 2025-Cİ İLİN FEVRAL AYINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ 5 ƏSAS İXRAC ÖLKƏSİ

(2024-cü ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2025 İXRAC İCMALI mart



# 2025-Cİ İLİN YANVAR-FEVRAL AYLARINDA İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI
(2024-cü ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

| | 2025 | 2024 |
|---|---|---|
| Qızıl | 40.2 | 6.8 |
| Karbamid | 36 | 21 |
| Xurma | 30.5 | 26.4 |
| Meşə fındığı | 27.9 | 22.4 |
| Tomat (pomidor) | 26.7 | 30 |
| Pambıq mahlıcı | 23.6 | 33.5 |
| Alüminium ərintilərindən düzbucaqlı plitələr | 21.3 | 16 |
| Metanol (metil spirti) | 19.8 | 15.7 |
| Elektrik enerjisi | 16.4 | 34.9 |

# 2025-Cİ İLİN YANVAR-FEVRAL AYLARINDA İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI

(2024-cü ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

| | 2025 | 2024 |
|---|---|---|
| İlkin formalı propilen sopolimerləri | 15.1 | 22.1 |
| Alma | 13.6 | 12.1 |
| Xüsusi kütləsi 0,94 və ya daha çox olan ilkin formalı polietilen | 8.4 | 8.9 |
| Sement klinkerləri | 8.3 | 5.9 |
| Xüsusi kütləsi 0,94 və ya daha az olan ilkin formalı polietilen | 8.2 | 6.1 |
| Kərə yağı | 8.2 | 4 |
| İlkin formalı polipropilen | 6.8 | 3.2 |
| Emal olunmamış alüminium ərintiləri | 5.9 | 4.8 |
| Prosessor hesablama maşınları | 5 | 0.03 |

2025 İXRAC İCMALI mart

# 2025-Cİ İLİN FEVRAL AYINDA İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI

(2024-cü ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

| | 2025 | 2024 |
|---|---|---|
| Qızıl | 19 | 6,8 |
| Karbamid | 15 | 10,6 |
| Pambıq mahlıcı | 14,4 | 23 |
| Meşə fındığı | 14 | 12,3 |
| Alüminium ərintilərindən düzbucaqlı plitələr | 13,4 | 7,6 |
| Tomat (pomidor) | 12 | 9,3 |
| Xurma | 11,2 | 9,3 |
| İlkin formalı propilen sopolimerləri | 10,3 | 13,2 |
| Metanol (metil spirti) | 8,6 | 8,4 |

# 2

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

2025-ci ilin yanvar-fevral ayları üzrə hazırlanmış qeyri-dövlət ixracatçı subyektlərin reytinqində ilk onluqda aşağıdakı şirkətlər təmsil olunublar: "Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti"nin Azərbaycan Respublikasındakı Nümayəndəliyi, "MKT İstehsalat Kommersiya" MMC, "LEPIN LM" Məhdud Məsuliyyətli Cəmiyyəti, "Baku Steel Company" QSC, "Export Stream" Məhdud Məsuliyyətli Cəmiyyəti, "Avrora" Məhdud Məsuliyyətli Cəmiyyəti, "Sahdag Sy" Məhdud Məsuliyyətli Cəmiyyəti, "6LSYSTEMS" MMC,"Agrarco" MMC, "KHAN-EL" MMC.

Qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında iştirak edən dövlətə məxsus olan şirkətlərin siyahısına ARDNŞ-nin Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi başçılıq edir. Daha sonra bu siyahıda aşağıdakı şirkətlər təmsil olunublar: “SOCAR Polymer” MMC, “Azəralüminium” MMC, “AzerGold” QSC, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Qaz İxrac İdarəsi,"Azərpambiq Aqrar Sənaye Kompleksi" MMC, "Azərbaycan Hava Yollari" QSC, “Azərenerji” ATSC, Naxçıvan MR Dövlət Energetika Xidməti, “Qaradağ Şüşə Zavodu” ASC.

Bu ixracatçıların reytinqi ilə bağlı məlumatla təqdim olunan infoqrafikalardan tanış ola bilərsiniz.

# 2025-Cİ İLİN YANVAR-FEVRAL AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ QEYRİ-DÖVLƏT İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

(ötən ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)



# 2025-Cİ İLİN YANVAR-FEVRAL AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ DÖVLƏTƏ MƏXSUS ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

**(ötən ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)**








* "SOCAR Polymer" MMC dövlət-özəl sektor tərəfdaşlığı nəticəsində yaranan müəssisədir

** "AzərGold" QSC-nın təqdim etdiyi rəqəmlər əsasında

3

# “AZƏRKOSMOS”A AİD XİDMƏT İXRACI HAQQINDA MƏLUMAT

## 2025-ci ilin yanvar-fevral aylarında Azərbaycan Respublikasının Kosmik Agentliyi (“Azərkosmos”) 2,7 milyon ABŞ dolları dəyərində telekommunikasiya xidməti ixrac etmişdir

Yeni nəsil xidmət ixracı hesab edilən peyk telekommunikasiya xidmətləri xidmət ixracının şaxələnməsi istiqamətində mühüm rola malikdir.

2025-ci ilin yanvar-fevral aylarında Azərbaycan Respublikasının Kosmik Agentliyi (Azərkosmos) tərəfindən dünyanın 37 ölkəsinə **2,7 milyon** ABŞ dolları dəyərində peyk telekommunikasiya xidmətləri ixrac edilib. “Azərkosmos”un xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin **66%**-ni təşkil edib.

2025-ci ilin ilk iki ayı ərzində 37 ölkədən 90-a yaxın şirkətə peyk telekommunikasiya xidmətləri ixrac olunub. Xidmət ixrac olunan ölkələr arasında Birləşmiş Krallıq, Lüksemburq, Nigeriya, Misir, Türkiyə və Pakistan böyük paya sahibdir.

# 2025-Cİ İLİN YANVAR-FEVRAL AYLARINDA AZƏRBAYCAN RESPUBLİKASININ KOSMİK AGENTLİYİ (AZƏRKOSMOS) 2.7 MİLYON ABŞ DOLLARI DƏYƏRİNDƏ TELEKOMMUNİKASİYA XİDMƏTLƏRİ İXRAC ETMİŞDİR

2025
İXRAC İCMALI
mart



**AZERSKY**

Yerin məsafədən müşahidə peyki missiyasını 1 il daha tez, yəni fəaliyyətinin 9-cu ilində başa çatdırdığından optik peyk xidmətləri üzrə məlumatlar cədvəldən çıxarılıb.

## Xidmət ixrac etdiyi 5 əsas ölkə



**İQTİSADİ İSLAHATLARIN TƏHLİLİ VƏ KOMMUNİKASİYA MƏRKƏZİNİN**
**“BİR PƏNCƏRƏ” İXRACA DƏSTƏK MƏRKƏZİ**


AZ 1073, Bakı ş., Yasamal r., Q. Xəlilov küç., 47
47, Khalilov str., Yasamal district, Baku
Баку, Ясамальский район, ул. Г. Халилова, 47

/BİR PƏNCƏRƏ İxraca Dəstək Mərkəzi





İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi
Center for Analysis of Economic Reforms and Communication
Центр Анализа Экономических Реформ и Коммуникаций


Azərbaycan Respublikasının
Ədliyyə Nazirliyi tərəfindən
“İxrac İcmalı” jurnalı
11 yanvar 2018-ci il tarixində
N4160 nömrəsi ilə mətbu nəşrlərin
reyestrinə daxil edilmişdir.



Bakı, Yasamal rayonu,
Q. Xəlilov küçəsi 47, AZ 1073
Tel.: (+ 994) 12 521 25 35
info@ereforms.gov.az

www.ereforms.gov.az

/iqtisadiislahat